16. Huschke S, Murphy-Tighe S, Barry M. Perinatal mental health in Ireland: A scoping review. Midwifery. 2020; 89: 102763. doi: 10.1016/j.midw.2020.102763.
17. Li K, Lu J, Pang Y, Zheng X, Liu R, Ren M, Tu S. Maternal postpartum depression literacy subtypes: A latent profile analysis. Heliyon. 2023; 9(10): e20957. doi: 10.1016/j.heliyon.2023.e20957.

DOĞUŞ FƏALİYYƏTİNİN DİSKOORDİNASİYASI OLAN QADINLARDA HAMİLƏLİYİN GEDİŞAT XÜSUSİYYƏTLƏRİ

A.A. Cavadova, E.M. Əliyeva, S.M. İsmayılova, Ş.Z. Əmiraslanova, A.N. Xudiyeva
Azərbaycan Tibb Universiteti, I Mamalıq və Ginekologiya kafedrası, Bakı, Azərbaycan

Açar sözlər: doğuş fəaliyyətinin diskoordinasiyası, servikal distosiya, birincili cift çatışmazlığı, sidik yollarının iltihabi xəstəlikləri

Problemin aktuallığı. Müasir mamalıq elminin aktual problemlərindən biri doğuş fəaliyyətinin patologiyasıdır. Aparılan tədqiqatlar əsasında təyin edilmişdir ki, bu patologiya ana və perinatal xəstələnmə və ölüm göstəricilərinə təsir edən yüksək amildir. Son illərdə doğuş fəaliyyətinin patologiyası 12-17%-ə qədər rast gəlinir [1-3].

Müasir təsnifata əsasən diskoordinə doğuş fəaliyyəti (DFD) doğuş fəaliyyətinin anomaliyalarına aiddir. Bu patologiyanın rast gəlmə tezliyi 1-4% təşkil edir. Bu günə qədər DFD patogenezi tam öyrənilməyib [4,5].

Bu patologiya müalicəyə çətin tabe olur və çox fəsadlarla nəticələnə bilər. Preliminar dövrdə və doğuşun dinamikasında uşaqlıq-cift və miometrium əzələsində qan dövranı pozulması, yaranan fəsadlar nəticəsində ana və döldə ağırlaşmalar yarana bilər.

Ədəbiyyat məlumatlarına görə DFD-in səbəblərindən qadının neyro-hormonal xəstəlikləri, doğuşdan əvvəl uşaqlıq boynunun qeyri yetişkənliyi, doğuşun dinamikasında uşaqlığın ritm aparıcısının yerdəyişməsi yüksək tezliklə qeyd edilir [6,7].

Müasir elmi tədqiqatlara əsasən DFD-nin müxtəlif formaları qeyd edilir:

- Uşaqlığın yığılma dalğasının uşaqlığın aşağı seqmentindən yuxarı seqmentinə yönəlməsi: aşağı seqmentin dominantı, uşaqlıq cisminin seqmentar-spastik distoniyası;
- Uşaqlıq cisminin əzələsinin yığılması müddətində uşaqlıq boynunun boşalmaması;
- Uşaqlığın bütün hissələrin əzələlərinin spazmı (uşaqlığın tetaniyası) [8,9].

DFD-nin səbəblərindən biri də miometriumunun β-reaktivliyinin azalması kimi qeyd olunur. Doğuş başlayan zaman β-adrenoreseptorların konsentrasiyası və həssaslığının azalması və reseptor zülalın ekspressiyasının nəzərə çarpacaq qədər dəyişməsi təyin edilir.

Son illərdə aparılan tədqiqatlara görə uşaqlıq boynunun distosiyası DFD-nın bir əlaməti kimi qeyd edilir. Uşaqlığın yığılma aktivliyinin tezliyi və qeyri-requlyar olması nəticəsində DFD-sı əmələ gəlir.

DFD-nin kliniki əlamətlərinə:

- Kəskin ağrılı və tez-tez müşahidə edilən müxtəlif intensivlikdə və davamlı sancıların olması;
- Uşaqlıq boynunun açılma dinamikasının olmaması;
- Dölün gələcək hissəsinin uzun müddət eyni çanaq müstəvisində ləngiməsi aiddir [10,11].

Qeyd etmək lazımdır ki, DFD-sı olan qadınlarda hamiləliyin gedişatı xüsusiyyətləri bugünə qədər öyrənilməyib. Problemin aktuallığını nəzərə alaraq hazırki tədqiqatın məqsədi təyin edilib.

Tədqiqatın məqsədi DFD-sı olan qadınlarda hamiləliyin gedişat xüsusiyyətlərinin öyrənilməsi olmuşdur.

Kliniki material və müayinə metodları. Məqsədə uyğun olaraq 60 DFD olan hamilə qadın müayinə edilmişdir.

Bütün qadınlara hamiləliyin 39-40 həftəsindən başlayaraq uşaqlıq boynunun yetişmə dərəcəsinin təyin etmək üçün E.A.Çernuxa tərəfindən modulyasiya olunmuş M.S.Burnehill şkalasından istifadə edilmişdir. Bütün hamilələrdə antenatal kardiotokoqrafiyanın (KTQ) qeyri-stress metodu ilə dölün ürək vurğusu və uşaqlığın yığılma aktivliyi qiymətləndirilmişdir.

Aparılan tədqiqat nəticəsində təyin edilmişdir ki, tədqiqata daxil olan hamilə və doğan qadınların orta yaşı 27,3±0,7 (18-40) yaş olmuşdur.

Müayinə olunan qadınların anamnezindən müəyyən edilmişdir ki, DFD-sı olan qadınlarda yüksək tezliklə uşaq-infeksion və xroniki somatik xəstəliklər qeyd olunmuşdur.

Aybaşı funksiyası öyrənilərkən müəyyən edilmişdir ki, DFD-sı olan qadınlarda menarxe 12,8±0,09 yaşda qeyd edilmişdir. Aybaşının müddəti 5,8±0,11 (3-7) gün, aybaşı tsiklinin müddəti isə 32,5±0,21 (35-40) gün olmuşdur. Qadınların cinsi həyatı 23,2±0,4 (18-36) yaşında başlamışdır.

60 DFD-sı olan qadınların 42-də (70%) ilk hamiləlik, 18 (30%) isə təkrar hamiləlik olmuşdur. Təkrar hamilə olan qadınların anamnezində yüksək tezliklə süni abort (68,8%), nisbətən az tezliklə (15,6%) doğuş olmuşdur.

Ginekoloji xəstəliklərinin tezliyini öyrənərkən təyin edilmişdir ki, DFD-sı olan qadınlarda yüksək tezliklə reproduktiv orqanların xroniki iltihabı xəstəlikləri (56,5%), uşaqlıq boynunda operativ əməliyyatların keçirilməsi (10,3%), nisbətən az tezliklə yumurtalıqların şişəbənzər törəmələri (5,8%) müşahidə edilmişdir. Müəyyən edilmişdir ki, DFD-sı olan 60 qadının 23-də (38,3%) uşaqlıq boynunda keçirilən əməliyyatlardan sonra müxtəlif dərəcədə formalaşmış çapıq müşahidə edilir. Eyni zamanda 60 xəstənin 35-də (58,3%) xroniki endoservisit, 38 xəstədə (63,3%) xroniki salpinqooforit, 27 xəstədə (45%) xroniki endometrit, 43 xəstədə (71,7%) xroniki kolpit, 21 xəstədə (35%) xroniki vulvovaginit qeyd edilmişdir.

Beləliklə, DFD-sı olan qadınların anamnezində yüksək tezliklə reproduktiv orqanların iltihabı prosesləri və uşaqlıq boynunda əməliyyatlardan sonra müxtəlif dərəcədə formalaşmış çapıqlar müşahidə edilmişdir.

Tədqiqat zamanı alınan nəticələr statistik işlənilmişdir. Qrup göstəriciləri variasiya sırasında yerləşdirilmişdir. Hər qrup üçün orta qiymət (M), orta qiymətin orta kvadratik meyli (λ^2), onun standart xətası (Se), eyni zamanda sıraların minimal (min) və maksimal (max) qiymətləri müəyyən olunmuşdur. Statistik işləmə orta qiymətin parametrik və qeyri-parametrik üsullarla hesablanması üçün nəzərdə tutulmuş "Statgraph" proqramı tətbiq etməklə aparılmışdır.

Tədqiqatın nəticələr və müzakirəsi. Aparılan tədqiqatda DFD-sı olan qadınlarda I trimestr gedişatı xüsusiyyətləri öyrənilmişdir. Alınan nəticələr cədvəl 1 təqdim edilmişdir.

Cədvəl 1.

DFD-sı olan qadınlarda hamiləliyin I trimestrində fəsadların rastgəlmə tezliyi

Fəsadlar	Mütləq	%
Anemiya	27	31,4
Erkən toksikoz	23	26,7
Düşük təhlükəsi	9	10,5
Hipotireoz (hormonal terapiyanın təyini)	5	5,8
İrsi trombofiliya	10	11,6
Veqetativ-damar distoniyası	12	14

Qeyd: 100% - bütün fəsadlarının sayı götürülüb

Cədvəl 1-dən göründüyü kimi, DFD-sı olan qadınlarda yüksək tezliklə anemiya (31,4%), erkən toksikoz (26,7%), irsi trombofiliya (11,6%), vegeto-damar distoniya (14%), düşük təhlükəsi (10,5%) qeyd edilir.

Aparılan tədqiqatda müəyyən edilmişdir ki, 60 DFD-sı olan qadınların 21-də (35%) hamiləliyin I trimestrinin fəsadsız gedişatı müəyyən edilib. 39 xəstənin 27-də (69,2%) anemiya, 23-də (59%) erkən toksikoz, 12-də (30,8%) vegetativ-damar distoniyası, 10-da (25,6%) irsi trombofiliya, 9-da (23,1%) düşük təhlükəsi müəyyən edilmişdir.

DFD-sı olan qadınlarda hamiləliyin II trimestrin gedişatı xüsusiyyətləri cədvəl 2-də təqdim edilir.

Cədvəl 2.

DFD-sı olan qadınlarda hamiləliyin II trimestrində fəsadların rastgəlmə tezlıyi

Fəsadlar	Mütləq	%
Simptomsuz bakteriuriya	23	12,8
Hestasion pielonefrit	17	9,5
Vegetativ-damar distoniyası	9	5,0
Anemiya	34	19,0
Düşük təhlükəsi (progesteron dəstək aparılmadan)	21	11,7
Düşük təhlükəsi və per os və intravaginal progesteronla müalicənin aparılması	19	10,6
Hipotireoz (hormonal terapiyanın təyini)	5	2,8
İrsi trombofiliya	10	5,6
Birincili cift çatmamazlığı (ciftin exoqrafik ölçülərinin hestasiya müddətinə uyğun olmaması)	41	23,0

Cədvəl 2-dən göründüyü kimi DFD-sı olan qadınlarda yüksək tezliklə birincili cift çatmamazlığı (23%), simptomsuz bakteriuriya (12,8%), anemiya (19%), düşük təhlükəsi olan hamilələrdə progesteron ilə müalicə (10,6%), hestasion pielonefrit (9,7%), irsi trombofiliya (5,6%), veqetativ-damar distoniyası (5,6%), hipotireoz (2,8%) təyin edilmişdir.

Aparılan tədqiqatda 60 DFD-sı olan qadınların 17-də (28,3%) II trimestrin fəsadsız gedişatı qeyd edilmişdir.

43 DFD-sı olan qadınların 41-də (95,3%) birincili cift çatmamazlığı, 23 (53,5%) simptomsuz bakteriuriya, 21-də (48,8%)düşük təhlükəsi, 34-də (79,1%) anemiya, 19-da (44,2%) progesteron ilə hormonal terapiya, 17-də (39,5%) hestasion pielonefrit, 10-da (23,3%) irsi trombofiliya, 9-da (20,9%) vegetativ-damar distoniyası, 5-də (11,6%) hipotireoz (hormonal terapiya almaqla) təyin edilmişdir.

Aparılan tədqiqatda DFD-sı olan qadınlarda III trimestrin gedişatı xüsusiyyətləri cədvəl 3-də təqdim edilmişdir.

Cədvəl 3.

DFD-sı olan qadınlarda hamiləliyin III trimestrində fəsadları rastgəlmə tezliyi

Fəsadlar	Mütləq	%
Simptomsuz bakteriuriya	26	19,3
Anemiya	31	23,0
Hipotireoz	5	3,7
Vaxtından qabaq doğuş təhlükəsi (progesteron dəstək aparılmadan)	11	8,1
Vaxtından qabaq doğuşlarda progesteronun intravaginal təyini	20	14.8
Dölün xroniki hipoksiyası	18	13,3
Dölün hipotrofiyası	4	3,0
Hestasion pielonefrit	11	8,1
Hipertonik tipli vegetativ-damar distoniyası	9	6,7

Cədvəl 3-dən göründüyü kimi, DFD-sı olan qadınlarda yüksək tezliklə (23%) anemiya, vaxtından qabaq doğuşlara (22,9%), onlardan 14,8% tezliklə progesteronun intravaginal təyini, dölün xroniki hipoksiyası (13,3%), simptomsuz bakteruriya (19,3%), sidik axarı yollarının iltihabı prosesləri (27,4%), hipertonik tipli vegetativ-damar distoniyası (6,7%), dölün hipotrofiyası (3%) qeyd olunmuşdur.

Aparılan tədqiqatda 60 DFD-sı olan qadınlardan 16-da (26,7%) III trimestrin fəsadsız gedişatı qeyd olunmuşdur.

Təyin olunmuşdur ki, 44 xəstənin 31-də (70,5%) anemiya, 37 xəstənin (84,1%) simptomsuz bakteriuriya, 31 xəstədə (70,5%) vaxtından qabaq doğuş təhlükəsi, onlardan 20-də (45,5%) progesteronun intravaginal təyini, 22-də (50%) fetoplasentar çatmamazlığın klinik əlamətləri təyin edilmişdir.

Beləliklə, DFD-sı olan qadınlarda I trimestrində 45% hamilələnin fəsadsız gedişatı müəyyən edilib. Aşkar olunan fəsadlardan 69,2%-də anemiya, 59%-də erkən toksikoz, 30,8%-də vegetativ-damar distoniyası, 25,6%-də irsi trombofiliya, 23,1%-də düşük təhlükəsi müəyyən edilmişdir.

Hamiləliyin II trimestri DFD-sı olan qadınlarda 28,3% fəsadsız gedişatı qeyd edilib. Təyin edilən fəsadlardan 95,3%-də birincili cift çatmamazlığı, 53,5%-də simptomsuz bakteriuriya, 79,1% anemiya, 48.8%-də düşük təhlükəsi, 44,2% progesteron ilə hormonal terapiya yüksək tezliklə qeyd edilmişdir.

Hamiləliyin III trimestrində 26,7%-də fəsadsız gedişatı qeyd edilmişdir. Təyin edilmiş fəsadlardan 70,5%-də anemiya, 84,1%-da simptomsuz bakteriuriya, 70,5%-da vaxtından qabaq doğuş təhlükəsi, onlardan 45,5%-də progesteronun intravaginal təyini, 50%-da xroniki hipoksiyası və hipotrofiyası tətin edilmişdir.

Aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, DFD-sı olan qadınlarda yüksək tezliklə anemiya, sidik axarı yollarının iltihabı prosesləri, birincili cift çatmamazlığı, düşük təhlükəsi nəticəsində progesteron və digər preparatlarla hormonal terapiya təyin edilmişdir.

SUMMARY

Characteristics of pregnancy in women with discoordinated labor activity

A.A. Javadova, E.M. Aliyeva, S.M. Ismayilova, Sh.Z. Amiraslanova, A.N. Khudiyeva
Azerbaijan Medical University
Department of Obstetrics and Gynecology I,
Baku, Azerbaijan

***Key words**: discoordinated labor activity, cervical dystocia, primary placental insufficiency, inflammatory diseases of the urinary tract*

The purpose was studying the characteristics of pregnancy in women with discoordinated labor activity. Clinical material and examination methods: According to the objective, 60 pregnant women with DLA were examined. All women were assigned the degree of cervical effacement starting from 39-40 weeks of pregnancy. M.S.Burnehill scale modulated by E.A.Chernukha was used to determine the degree of cervical effacement. All pregnant women were evaluated by the non-stress method of antenatal CT scan, fetal heart rate and uterine contraction activity. The average age of pregnant women and women in labor included in the study was 27.3±0.7 (18-40) years. Results of the study: Uncomplicated course of pregnancy was determined in 35% of women with DLA in the first trimester. Among the detected complications, anemia was identified in 69,2%, early toxicosis in 59%, vegetative-vascular dystonia in 30,8%, hereditary thrombophilia in 25,6%, and threatened miscarriage in 23,1%. Of the 43 women with DLA in 41 had (95.3%) primary infertility, 23 (53.5%) asymptomatic bacteriuria, 21 (48.8%) miscarriage, 34 (79.1%) anemia, hormonal treatment with progesterone agents in 19 (44.2%), gestational pyelonephritis in 17 (39.5%), hereditary thrombophilia in 10 (23.3%), vegetative-vascular dystonia in 9 (20.9%), hypothyroidism (with hormonal therapy) was determined in 5 (11.6%).

Uncomplicated course of pregnancy in the III trimester in 26.7%. 84,1% of pregnant women have urinary tract inflammation, 70,5% have a risk of premature birth, 33.3% of them have intravaginal progesterone, 70,5% have anemia, 50% have chronic

РЕЗЮМЕ

Особенности течения беременности у женщин с дискоординированной родовой деятельностью

А.А. Джавадова, Э.М. Алиева, С.М. Исмаилова, Ш.З. Амирасланова, А.Н. Худиева
Азербайджанский Медицинский Университет
Кафедра акушерства и гинекологии I
Баку, Азербайджан

***Ключевые слова:** дискоординированная родовая деятельность, дистоция шейки матки, первичная плацентарная недостаточность, воспалительные заболевания мочевыводящих путей*

Целью было изучение особенностей течения беременности у женщин с дискоординированной родовой деятельностью (ДРА). Клинический материал и методы исследования: По цели обследовано 60 беременных с ДРА. Всем женщинам была присвоена степень сглаженности шейки матки начиная с 39-40 недель беременности. Для определения степени сглаживания шейки матки использовали шкалу М.С.Бернехилла, модулированную Е.А.Чернухой. У всех беременных нестрессовым методом антенатальной кардиотокографии оценивали частоту сердечных сокращений плода и сократительную активность матки. Средний возраст беременных и рожениц, включенных в исследование, составил 27,3±0,7 (18-40) лет. Результаты исследования: Неосложненное течение беременности определялось у 35% женщин с ДРА в первом триместре. Среди выявленных осложнений анемия выявлена у 69,2%, ранний токсикоз - у 59%, вегето-сосудистая дистония - у 30,8%, наследственная тромбофилия - у 25,6%, угроза прерывания беременности - у 23,1%. Из 43 женщин с ДРА у 41 было (95,3%) первичное бесплодие, у 23 (53,5%) бессимптомная бактериурия, у 21 (48,8%) невынашивание беременности, у 34 (79,1%) анемия, гормональное лечение препаратами прогестерона у 19 (44,2%), гестационный пиелонефрит - у 17 (39,5%), наследственная тромбофилия - у 10 (23,3%), вегето-сосудистая дистония - у 9 (20,9%), гипотиреоз (на фоне гормональной терапии) - у 5 (11,6%). Неосложненное течение беременности в III триместре у 26,7%. У 84,1% беременных имеется воспаление мочевыводящих

hypoxia of the fetus and hypotrophy is satisfied. Uncomplicated course of pregnancy in the III trimester in 26.7%. 61.7% of pregnant women have urinary tract inflammation, 56.7% have a risk of premature birth, 33.3% of them have intravaginal progesterone, 51.7% have anemia, 36.7% have chronic hypoxia of the fetus and hypotrophy is satisfied. As a result of the study, it was determined that women with DLA had high frequency of anemia, inflammatory processes of the urinary tract, primary placental insufficiency, and hormonal treatment with progesterone and other drugs as a result of threatened miscarriage.

путей, у 70,5% - риск преждевременных родов, у 33,3% из них - интравагинальный прогестерон, у 70,5% - анемия, у 50% - хроническая гипоксия плода и гипотрофия.. Неосложненное течение беременности в III триместре у 26,7%. У 61,7% беременных имеется воспаление мочевыводящих путей, у 56,7% - риск преждевременных родов, у 33,3% из них - интравагинальный прогестерон, у 51,7% - анемия, у 36,7% - хроническая гипоксия плода и гипотрофия. В результате исследования установлено, что у женщин с ДРА отмечена высокая частота анемии, воспалительных процессов мочевыводящих путей, первичной плацентарной недостаточности, гормонального лечения прогестероном и другими препаратами в результате угрозы выкидыша.

ƏDƏBİYYAT

1. Ушакова Г.А., Петрич Л.Н. Современные представления о механизмах развития родовой деятельности. Обзор // Мать и Дитя в Кузбассе, 2016, №2, вып.65, с.4-10.
2. Зефирова Т.П., Железова М.Е., Яговкина Н.Е. Аномалии родовой деятельности: механизмы формирования и факторы риска // Ж.Практическая Медицина, 2010, вып.4, №43, с.44-48.
3. Əliyeva E.M., Musəvi F.V. Doğuş yollarının hazırlığının və doğuşun induksiyasının müasir üsulları // Tədris-metodik vəsaiti, Bakı, 2000, s.27.
4. Чернуха Е.А. Родовой блок: руководство для врачей // М.: Триада-Х, 2005, 708 с.
5. Савицкий А.Г. Структура аномалий родовой деятельности в современном акушерстве: клинико-диагностические аспекты // Ж. акушерства и женских болезней, 2006, №2, с.17-22.
6. Lazurenko V.V., Zviahina N.Y. State of the art of discoordinated labor problem // Int.Med.J.Obstet.Gynecol., 2019, vol.25, №4, p.23-30.
7. Abraham W., Berhan Y. Predictors of labor abnormalities in university hospital: unmatched case control study // BMC Pregnancy Childbirth, 2014, №14, p.256.
8. Мудров В.А. Возможности прогнозирования аномалий родовой деятельности // Ж.Акушерства и женских болезней, 2020, т.69, №5, с.13-25.
9. Радзинский В.Е., Фукс А.М. Акушерство: учебник // М.: ГЭОТАР-Медиа, 2016, 1040 с.
10. Радзинский В.Е. Акушерская агрессия v.2.0 // М.: StatusPraesens, 2017, 870 с.
11. Радзинский В.Е., Хамошина М.Б., Чакчурина И.А., Оразмурадова А.А. Акушерские и перинатальные осложнения у юных первородящих // Доктор Ру, 2019, №7, вып.162, с.6-11.

UŞAQLIĞIN ARTERİOVENOZ MALFORMASİYASI - ÇAPIQ HAMİLƏLİYİNİN AĞIRLAŞMASI KİMİ


T.E. Bayramova[1], G.O. Rəhimova[1], L.N. Qaçaylı[1], A.N. Yəhyayev[2]
[1]Mərkəzi Gömrük Hospitalı, mama-ginekologiya şöbəsi
[2]Respublika Müalicəvi Diaqnostika Mərkəzi, radiologiya şöbəsi, Bakı, Azərbaycan

Açar sözlər: uşaqlıq, çapıq hamiləliyi, arterio-venoz malformasiya


AVM (Arteriovenoz malformasiya) - arterial və venoz sistem arasında kapilyar şəbəkə olmadan anormal bağlantının olmasıdır. Uşaqlığın arteriovenoz malformasiyası nadir rast gəlinir, ədəbiyyatda 100-dən az klinik müşahidə yer almışdır. Anadangəlmə və qazanılmış ola bilər. Uşaqlıqda icra olunan prosedurlar, infeksiya, uşaqlıq daxili vasitə, abortlar və çapıq hamiləliyi sonrası uşaqlığın arteriovenoz malformasiyası formalaşa bilər. Adətən bu patologiya özünü menometrorragiya şəklində biruzə verir. Diaqnoz uşaqlığın doppler ultrasəs və MRT müayinəsi vasitəsilə qoyulur [1,2].

Uşaqlığın arteriovenoz malformasiyası çapıq hamiləliyinin ağırlaşması kimi də rast gəlinə bilər. Çapıq hamiləliyi ektopik hamiləliyin nadir forması olub, embrionun uşaqlıq çapığına implantasiyasıdır. Çapıq hamiləliyinin erkən diaqnozunun qoyulması və düzgün müalicə taktikasının seçilməsi ağırlaşmaların qarşısını almış olur. Müalicə üsulu seçilərkən fertilliyin qorunması, minimal ağırlaşmanın olması nəzərə alınmalıdır. Histeroskopik rezeksiya, əzələdaxili Metotreksat inyeksiyası, ardından servikal dilatasiya və vakuum aspirasiyası Karman kanyulası ilə ultrasəs müayinəsi altında, uşaqlıq arteriyası embolizasiyası, ardından ultrasəs müayinəsi altında vakuum aspirasiyası, laparotomik rezeksiyadan əvvəl uşaqlıq arteriyası embolizasiyası mövcud müalicə üsullarındandır [3-5].

Təqdim olunan nümunə: 30 yaşlı G3 P2 A1 Y2 olan qadın davamlı vaginal qanaxma şikayəti ilə 18.01.2023 tarixində klinikaya müraciət etmişdir. Xəstəyə 20.11.2023 tarixində başqa mərkəzdə süni abort icra edilmişdir. Aparılan transvaginal ultrasəs müayinəsi zamanı uşaqlığın ön divarında pulsasiya olmayan, güclü qan axını müşahidə edilən hipo vəya anexoik sahə izlənildi. Bu sahə AVM (arterio-venoz malformasiyası) olaraq dəyərləndirildi. (Şəkil 1, şəkil 2.)



Şəkil 1.



Şəkil 2.

Şəkil 1 və 2. *Transvaginal ultrasəs müayinəsi zamanı iki proyeksiyada (sagittal və transvers) uşaqlığın ön divarında pulsasiya olmayan, güclü qan axını müşahidə edilən hipo- və ya anexoik sahə izlənildi. Bu sahə AVM (arterio-venoz malformasiyası) sahəsidi*

Uşaqlığın arterio-venoz malformasiyası çapıq hamiləliyinin nəticəsi olaraq yaranmışdır. Müayinədən 20 gün əvvəl Beta-HCG 250 BV olmuşdur. Xəstəyə ilkin olaraq uşaqlıq arteriyasının embolizasiyası məsləhət görüldü. Başqa mərkəzdə 25.01.2023 tarixində sağ femoral arteriyadan giriş olunaraq, sol daxili


qalça arteriya, sol uşaqlıq arteriya selektiv katerizasiya olundu. Angioqramlarda uşaqlığın cisminin distal 1/3 seqmentində təxminən 2x3 sm-lik sahədə multiple arteriovenoz şuntlar qeyd edilmişdir. Nidus hissəsində venoz göllənmələr müşahidə edilmişdir. 350-500 PVA partikulları ilə embolizasiya icra olunmuşdur. Xəstə 27.01.2023 tarixində təkrar müayinədə oldu.




Şəkil 3. *Ultrasəs müayinədə uşaqlıqğın distal 1/3 seqmentində 2x3 sm-lik sahədə*

Arteriovenoz şuntlar

Müayinə zamanı Beta-HCG 115.6 BV olmuş xəstəyə Metotreksat 100mg təyin olundu. 03.02.2023 tarixində Beta HCG 50.87BV, 10.02.2023 tarixində Beta-HCG 2.03BV olmuş və xəstəyə histeroskopik endometriumun ablaziyası əməliyyatı icra edilmişdir. Xəstənin qanaxma şikayəti histeroskopik endometrium ablaziyasından bir neçə gün sonra dayanmışdır. Təkrar ultrasəs müayinəsi zamanı hiperexogen sahə müşahidə edilmədi. (Şəkil 4, şəkil 5.)



Şəkil 4.



Şəkil 5.


Şəkil 4 və 5. *Müalicədən sonra USM-də normal görüntü, hipoexogen sahələr təyin olunmur.*




Şəkil 3. *Ultrasəs müayinədə uşaqlıqğın distal 1/3 seqmentində 2x3 sm-lik sahədə*

Arteriovenoz şuntlar

Müayinə zamanı Beta-HCG 115.6 BV olmuş xəstəyə Metotreksat 100mg təyin olundu. 03.02.2023 tarixində Beta HCG 50.87BV, 10.02.2023 tarixində Beta-HCG 2.03BV olmuş və xəstəyə histeroskopik endometriumun ablaziyası əməliyyatı icra edilmişdir. Xəstənin qanaxma şikayəti histeroskopik endometrium ablaziyasından bir neçə gün sonra dayanmışdır. Təkrar ultrasəs müayinəsi zamanı hiperexogen sahə müşahidə edilmədi. (Şəkil 4, şəkil 5.)



Şəkil 4.



Şəkil 5.

Şəkil 4 və 5. *Müalicədən sonra USM-də normal görüntü, hipoexogen sahələr təyin olunmur.*

Müzakirə: Uşaqlığın vaskulyar anomaliyaları nadir rast gəlinir. Bu patologiyalar həyat üçün təhlükəli və hemodinamik pozulmalarla müşaiyət olunan qanaxma ilə nəticələnə bilir. Bu səbəbdən reproduktiv yaşda olan və izah olunmayan qanaxma şikayəti olan qadınlarda bu kimi halların differensasiyası mühümdür.

Uşaqlığın AVM-i haqqında ilk klinik müşahidə 1926-cı ildə Dubreuil və Loubat tərəfindən təqdim edilmişdir. Arterio-venoz malformasiya arterial və

system without a capillary network. Arteriovenous malformation of the uterus is rare, with fewer than 100 clinical cases reported in the literature. It can be congenital or acquired. Arteriovenous malformation of the uterus can be formed after procedures performed in childhood, infection, intrauterine device, abortions and scar pregnancy. At this article it was presented the case report of AVM after scar pregnancy and effective treatment result. Scar pregnancy and the arterio-venous malformation of the uterus formed in its background should be evaluated in time with the correct diagnostic method.

венозной системой без капиллярной сети. Артериовенозные мальформации матки встречаются редко, в литературе описано менее 100 клинических случаев. Такая патология может быть врожденной или приобретенной. Артериовенозные мальформации матки могут формироваться после инвазивных процедур, выполненных в матке, инфекции, внутриматочной спирали, абортов и рубцовой беременности. В статье представлен клинический случай АВМ после рубцовой беременности и эффективный результат лечения. Рубцовая беременность и образовавшаяся на ее фоне артерио-венозная мальформация матки должны быть своевременно оценены с помощью правильного метода диагностики.

ƏDƏBIYYAT

1. Hickey M, Fraser I. Clinical Implications of Disturbances of Uterine Vascular Morphology and Function. Baillieres Clin ObstetGynaecol. 2000;14(6):937-951.
2. Polat P, Suma S, Kantarcy M, Alper F, Levent A. Colour Doppler Ultrasound in the Evaluation of Uterine Vascular Abnormalities. Radiographics. 2002;22:47-53.
3. Fleming H, Ostor A, Pickel H, Fortune D. Arteriovenous Malformations of the Uterus. Obstet Gynaecol. 1989;73(2):209–213.
4. Grivell R, Reid K, Mellor A. Uterine Arteriovenous Malformations: A review of the Current Literature. Obstet Gynaecol Survey. 2005;60(11):761-767.
5. Cura M, Martinez N, Cura A, Dalsaso TJ, Elmerhi F. Arteriovenous malformation of the Uterus. Sage Journals.Volume 50. Issue 7.


QADINLARDA CİNSİ DİSFUNKSİYANIN İDARƏ EDİLMƏSİ

C.İ. Əhmədzadə, A.Ş. İskəndərova, İ.S. Əhmədov
Azərbaycan Tibb Universiteti, Tədris Cərrahiyyə Klinikası, Urologiya Kafedrası, Bakı, Azərbaycan

Açar sözlər: *Qadın cinsi funksiyasının pozulması, təsnifatı, elmi araşdırmalar və tədqiqatlar, müalicə prinsipləri*

İnsanın cinsi funksiyası həm növlərin yayılmasında, həm də həyat keyfiyyətində həyatın vacib komponentidir. Qadın cinsi funksiyasının pozulması - birdən çox yaranma səbəbi olan, bioloji, psixoloji və sosial münasibətlərin təsirləndiyi problemdir. Cinsi disfunksiya həyat keyfiyyətinin azalmasına səbəb ola bilər. Kişi cinsi disfunksiya, xüsusən də erektil disfunksiya geniş şəkildə tədqiq edilmişdir və bu pozulması olan kişilər üçün effektiv müalicə üsulları mövcuddur. Bununla belə, qadın cinsi disfunksiya (QCD) kişi cinsi disfunksiya ilə müqayisədə daha mürəkkəbdir və kifayət qədər araşdırılmamışdır [1-6].

Cinsi funksiya psixoloji və hormonal faktorlar tərəfindən idarə olunan mürəkkəb neyro-vaskulyar prosesin nəticəsidir. İstənilən koordinasiya edilmiş fizioloji reaksiya kimi, bu funksiyada çoxlu sistemlər iştirak edir. Qadının cinsi fəaliyyəti dövründə bir və ya bir neçə fizioloji prosesin pozulması kimi müəyyən edilə bilər. Bu səbəbdən qadın cinsi funksiyasının pozulmasını anlamaq üçün ilk növbədə qadınlarda cinsi fəaliyyətin necə baş verdiyini bilmək lazımdır. QCD anatomik, psixoloji, fizioloji, həmçinin sosial-şəxslərarası komponentləri özündə birləşdirən çoxşaxəli bir xəstəlikdir [7].



Normal qadın cinsi dövrünün psixogen və hemodinamik prosesləri. Oyanma, orqazm və post-orgazm çərçivəsindən gələn psixoseksual reaksiyalar. Orgazmla nəticələnən artan həyəcan, vaginal və labial təzyiqlərdə və klitorun doldurulmasında artım nümayiş etdirir [8].

30 il əvvəl ilə müqayisədə QCD halları həyəcan verici dərəcədə yüksəkdir. Bununla belə, QCD nisbətən az öyrənilmiş olaraq qalır və kişilərdə erektil disfunksiya üçün istifadə edilən fosfodiesteraza tip 5 (PDE 5) inhibitorları kimi terapevtik nailiyyətlər hələ kəşf edilməmişdir. Bütün cəmiyyətdə qadınlarda

cinsi pozulmalar həm sağlamlıqla bağlı, həm də psixososial amillərdən təsirlənir. Birlikdə götürüldükdə, bu dinamik həyat keyfiyyətinin və şəxsiyyətlərarası münasibətlərin pozulması ilə əlaqələndirilir [5].

Cinsi disfunksiya və xroniki kompensasiya edilmiş ürək çatışmazlığı olan qadınlar arasında yüksək korrelyasiya olduğu bildirilmişdir. Ürək çatışmazlığı olan orta yaşlı qadınların 87%-nin müəyyən dərəcədə cinsi disfunksiyası vardır. Daha dəqiq desək, bu xəstələrin 80%-də tez-tez uğursuz cinsi əlaqəyə (76%) səbəb olan vaginal mayenin azalması və eyni əhalinin 63%-də orqazma çatmaqda çətinlik çəkdiyi bildirilmişdir. Həqiqətən, xroniki kompensasiya edilmiş ürək çatışmazlığı olan qadınlarda cinsi disfunksiyaların yayılması həyat keyfiyyətinin azaldığını göstərir[4,8].

Diabetli kişilərdə aparılan geniş cinsi funksiya tədqiqatları ilə müqayisədə diabetli qadınlarla bağlı xeyli az məlumat vardır. Bununla belə, son tədqiqatlar göstərmişdir ki, diabetli qadınlarda cinsi disfunksiya hallarının artması, o cümlədən cinsi həvəsin azalması, oyanmanın az və ya heç olmaması, vaginal quruluq, orqazma nail olmaqda çətinlik və ümumilikdə cinsi məmnuniyyətin azalması müşahidə edilir. Bu müşahidələrə baxmayaraq, QCD və diabet arasında korrelyasiya mübahisəsiz deyil. Diabetik qadınların psixoseksual çətinliklərinin tezliyi ilə bağlı hesabatda ikincil cinsi disfunksiya aşkar edilmişdir ki, diabetli qadınların 73,3%-də bildirilmişdir, lakin cinsi pozulmalar və diabetik ağırlaşmalar arasında birbaşa əlaqə aşkar edilməmişdir. Bu müəlliflər belə nəticəyə gəliblər ki, diabetli qadınlarda cinsi disfunksiya əsasən psixogen bir ağırlaşmadır [9-11].

Bu məlumatları geniş şəkildə şərh edərkən, belə bir qənaətə gəlmək olar ki, cinsi disfunksiya ürək-damar xəstəlikləri üçün erkən marker rolu oynaya bilər. Buna görə də, QCD-nın etiologiyası və müalicə variantlarının daha hərtərəfli başa düşülməsi qadınlarda müşahidə olunan mövcud vəziyyəti yaxşılaşdırmaq, həmçinin gələcək, daha ölümcül olan patologiyaların qarşısının alınması üçün çox vacibdir.

Son 20 il ərzində qadın cinsi funksiyasını və disfunksiyasını araşdırmaq üçün heyvan modellərindən istifadə edilib və bir neçə eksperimental yanaşma işlənib hazırlanıb. Qadın cinsi funksiyasının xüsusi aspektləri, daha dəqiq desək, istək və periferik oyanma hal-hazırda əsas elm laboratoriyalarında araşdırılır. QCD-nın dəqiq modelləşdirilməsi eksperimental problemdir. Bununla belə, diabet, ürək-damar xəstəlikləri və depressiya modelləri kimi komorbid xəstəliklərin araşdırılması QCD ilə əlaqəli son nöqtə ölçmələrinin araşdırılmasına imkan verir [12-14].

Aparılmış eksperimentlər aşkar etdi ki, dopamin agonistləri həqiqətən qadınlarda cinsi istəyi artırır və QCD-dən əziyyət çəkən qadınlar üçün əlverişli müalicə variantıdır [15].

QCD-nın tədqiqi bir çox amillərlə çətinləşir. Eksperimental olaraq, QCD-nın modelləşdirilməsinə görə çətindir. Klinik olaraq cinsi disfunksiya olan qadınlarda müalicənin müvəffəqiyyəti dəyişkəndir, çünki hər qadın cinsi stimula (müalicəyə) eyni reaksiya vermir. Heyvan modellərində QCD-nın birbaşa öyrənilməsinin çətin olduğu sübut edilmişdir və buna görə də pozulma daha çox qurulmuş modellərin yaradıldığı digər komorbid vəziyyətlərin (şəkərli diabet, hipertoniya və s.) öyrənilməsində tədqiq edilmişdir. Bu yanaşma QCD-nın öyrənilməsini çətinləşdirə bilər [16-18].

Qadın cinsi disfunksiyasının müalicəsində uroloq, endokrinoloq, mama-ginekoloq və psixiatr da daxil olmaqla multidisiplinar yanaşma tələb oluna bilər. Ümumiyyətlə, cinsi disfunksiyaların müalicə variantları arasında - bəzi dərmanlar, vakuum cihazları, sinir stimullaşdırma üsulları, psixoterapiya və bu üsulların bir neçəsinin birgə tətbiqi var.

- Dərman müalicəsi: Xüsusilə menopauzadan keçmiş qadınlarda azalmış hormonları əvəz etmək üçün tətbiq edilən dərman müalicəsi daxildir:
  - o Estrogen
  - o Testosteron
  - o Tibolon
  - o Prostaglandin E1
  - o Alprostadil
  - o Fentolamin
  - o Apomorfin
  - o Fosfodiesteraza 5 inhibitorları

- Klitor üçün vakuum cihazları: Cinsi orqanlarda qeyri-kafi qan dövranı səbəbiylə yaranmış cinsi disfunksiyanı müalicə etmək üçün nəzərdə tutulmuş klitoral vakuum cihazı klitorda qan dövranını və düz əzələ nisbətini artırmaqda faydalıdır. Bədənə daxil olmamışdan əvvəl klitor üzərində yumşaq vakuum effekti yaradır və həssaslığı, vaginal mayenin miqdarını və orqazm keyfiyyətini artırır. Cihaz istifadə zamanı klitorun üzərinə yerləşdirilmiş qıf formalı kiçik yumşaq plastik vakuum başlığından və vakuum mexanizmini işlədən mexanizmə enerji verən bir cüt batareyadan ibarətdir. Aktivləşdirildikdə vakuum pompası qanı klitora çəkir, burada qan dövranını artırır və cinsi oyanmaya kömək edir.

Cinsi disfunksiya olan qadınlarda cihazdan istifadə edildikdən sonra cinsi həssaslığın 100%-ə qədər,

orqazmın 80%-ə qədər və vaginal mayenin miqdarının 73%-ə qədər artması bildirilmişdir.

• Transkutan sinir stimullaşdırılması (TENS): Oyanma və orqazm problemi olan qadınlarda istifadə olunur. Bu, iki elektrodlu portativ cihazdır və batareya ilə işləyir. Sinir stimulyasiyası hər gün bir saat ərzində həkim tərəfindən təyin olunan tezliklərdə və intensivliklərdə, elektrodlar 15 sm intervalla ayaq biləyinin daxili hissəsinə yapışdırılmaqla aparılır. Cinsiyyət orqanlarına gedən sinirləri dolayı yolla stimullaşdıraraq, onurğa beynində cinsiyyət orqanlarına gedən sinirlərin refleks mexanizmlərini tənzimləyərək öz təsirini göstərir. Bu şəkildə oyanmada, vaginal maye miqdarında və orqazm intensivliyində artım olur. Bu günə qədər TENS-in heç bir yan təsiri aşkar edilməmişdir [19-20].

• Əzələ məşqləri: Əzələ məşqləri (Kegel məşqləri) cinsi ağrıları və vaginizm kimi cinsi əlaqə pozulmaları olan qadınlara cinsi orqan quruluşları haqqında əsas məlumatları əldə etmək və cinsi yaxınlıqdan əvvəl istirahət etmək üçün öyrədilir. Dörd-altı həftə ərzində gündə beş-altı dəfə tətbiq etmək tövsiyə olunur.

• Psixoterapiya: Cinsi funksiya pozğunluğu olan xəstələrdə olduğu kimi partnyorlarında da müxtəlif psixososial problemlər görülə bilər. Bu psixososial problemlər bəzən cinsi disfunksiyaların səbəbi, bəzən də nəticəsi olur. Cinsi həyatdakı pozulmalar cütlər arasında münasibətlərin pisləşməsinə səbəb ola bilər. Cinsi disfunksiya ilə müraciət edən cütlərdə psixoloji və sosial sorğular nəticəsində psixoterapiya və cinsi terapiyanın aparılması məsləhət görülə bilər. Psixoloji məsləhət və terapiya dəstəyi xəstəyə və partnyora problemin öhdəsindən gəlməkdə köməklik göstərmək, həmçinin problemi müəyyən edib həll etmək baxımından çox vacibdir. Hal-hazırda QCD-nın müalicəsində bir neçə farmakoloji variant mövcuddur. Tarixən QCD-sı olan xəstələr psixoloji terapiya vasitəsilə müalicə olunurdu. Lakin problemin mürəkkəbliyini başa düşdüyümüz üçün problemi həll etmək üçün daha fundamental elmi və klinik araşdırmalar işlənib hazırlanmışdır. Cinsiyyət orqanlarına qan axınının artırılması, androgen çatışmazlığının yaxşılaşdırılması və mərkəzi sinir sisteminin stimullaşdırılmasının gücləndirilməsinə yönəlmiş bir sıra farmakoloji təşəbbüslər inkişaf etdirilir.

QCD-nın öyrənilməsi hər hansı bir xəstəlik kimi mürəkkəbdir. Qadın cinsəlliyi anlayışımız yalnız ilk dəfə təxminən 50 il əvvəl rəsmi olaraq müzakirə edilmişdir. Bu dövrdə və hətta indi də, QCD-nın müalicəsi ilk növbədə psixososial/mədəni terapiyaya yönəlmişdir və bizim məhdud biliklərimizin mövcud qeyri-adekvat müalicə variantlarını əks etdirdiyini vurğulayır. QCD-nın mürəkkəbliyinə görə, neyrobioloji, vazoaktiv, hormonal, eləcə də psixososial/mədəni aspektlərə müraciət edən çoxşaxəli yanaşma daha əhatəli olardı və bu pozğunluqdan əziyyət çəkən qadınların ehtiyac və narahatlıqlarını həll edərdi. Heyvanlarda QCD-nın birbaşa modelləşdirilməsi çətin ola bilər. Bununla belə, QCD ilə bir çox digər xəstəliklər, eləcə də xarakterizə edilən heyvan modelləri arasında müşahidə olunan komorbidlik potensial olaraq bu pozulmaların fundamental elmi tədqiqatlarının gələcəyi olacaqdır [21,22].

Yekun

Cinsi fəaliyyətin başlanmasına, davam etdirilməsinə və ya qənaətbəxş şəkildə bitməsinə mane olan hər hansı bir problem olarsa, tərəddüd etmədən bu sahədə ixtisaslaşmış səhiyyə qrupuna müraciət edilməli, lazım olduqda dəqiq və ətraflı məlumat alınaraq müalicəyə başlanılmalıdır. Cinsi disfunksiyaların səbəbi və müalicəsi ilə bağlı araşdırmalar sürətlə davam edir və mövcud bilik və üsullara yeni məlumat və üsullar əlavə edilməlidir. Unudulmamalıdır ki, cinsəllik cütlərin güc və enerji sərf edərək birlikdə yaratdıqları bir fəaliyyətdir və bunun gətirdiyi məmnuniyyəti yaşamaq üçün hər iki tərəfin bərabər haqqı vardır.

SUMMARY

Management of Sexual Dysfunction in Women

C.I. Ahmadzade, A.Sh. Iskanderova, I.S. Ahmadov

Teaching Surgery Clinic, Azerbaijan Medical University, Department of Urology, Baku, Azerbaijan

Keywords: *female sexual dysfunction, classification, scientific studies and research, principles of treatment*

Female sexual dysfunction (FSD) is a problem with few treatment options, affecting approximately 40% of women. FSD is closely related to aging and is a common condition. Common symptoms of FSD include decreased vaginal lubrication, pain and discomfort during intercourse, decreased sensation of arousal, and difficulty achieving orgasm. During such discomfort, only a small part of women consult a doctor. Compared to the vast research and treatment for erectile dysfunction in men, particularly with the development of phosphodiesterase type 5 inhibitors, FSD has been significantly understudied and treatment has been limited primarily to psychological therapy. A number of cardiovascular diseases have been associated with FSD, including atherosclerosis, peripheral arterial disease, and hypertension. But more information needs to be learned to properly treat women with FSD.

РЕЗЮМЕ

Лечение сексуальной дисфункции у женщин

С.И. Ахмадзаде, А.Ш. Искандерова, И.С. Ахмедов

Клиника учебной хирургии Азербайджанского медицинского университета, Кафедра урологии, Баку, Азербайджан

Ключевые слова: *женская сексуальная дисфункция, классификация, научные исследования и исследования, принципы лечения*

Женская сексуальная дисфункция (ЖСД) — это проблема, требующая нескольких вариантов лечения, от которой страдают примерно 40% женщин. ЖСД тесно связана со старением и является распространенным заболеванием. Общие симптомы ЖСД включают снижение выделения вагинальной секреции, боль и дискомфорт во время полового акта, снижение ощущения возбуждения и трудности с достижением оргазма. Во время такого дискомфорта лишь небольшая часть женщин обращается к врачу. По сравнению с обширными исследованиями и лечением эректильной дисфункции у мужчин, особенно с разработкой ингибиторов фосфодиэстеразы 5-го типа, ЖСД изучена недостаточно, и лечение ограничивается в первую очередь психологической терапией. Ряд сердечно-сосудистых заболеваний связан с ЖСД, включая атеросклероз, заболевания периферических артерий и гипертонию. Но, необходимо проведение дополнительных исследований в данном направлении для получения большей информации относительно эффективного лечения ЖСД.

ƏDƏBIYYAT

1. Banaei M, Moridi A, Dashti S. Sexual dysfunction and its associated factors after delivery: a longitudinal study in Iranian women. Materia socio-medica. 2018;30(3):198.
2. Camara A, Tounkara TM, Delamou A, Baldé R, Leno NN, Kuotu GC, et al. Prevalence and risk factors of female sexual dysfunction among women infected with HIV in Conakry. Clin Epidemiol Global Health. 2021;12: 100828.
3. Adebusoye L, Ogunbode O, Owonokoko M, Ogunbode A, Aimakhu C. Factors associated with sexual dysfunction among female patients in a Nigerian ambulatory primary care setting. Annals of Ibadan Postgraduate Medicine. 2020;18(1):9-17.

4. Olugbenga-Bello A, Adebayo K, Goodman O, Oke O, Olukunle T. Prevalence and socio-demographic determinants of sexual dysfunction among Married Women of Reproductive Age Group in South West Nige-Ria. J Reprod Med Gynecol Obstet. 2020;5:046.
5. Ghiasi A, Keramat A. Prevalence of sexual dysfunction among reproductive-age women in Iran: a systematic review and meta-analysis. J Midwifery Reproductive Health. 2018;6(3):1390–8.
6. Halle-Ekane GE, Timti LF, Tanue EA, Ekukole CM, Yenshu EV. Prevalence and Associated factors of female sexual dysfunction among sexually active students of the University of Buea. Sex Med. 2021;9(5):100402.
7. Madbouly K, Al-Anazi M, Al-Anazi H, Aljarbou A, Almannie R, Habous M, et al. Prevalence and predictive factors of female sexual dysfunction in a sample of Saudi Women. Sex Med. 2021;9(1):100277.
8. Gutzeit O, Levy G, Lowenstein L. Postpartum female sexual function: risk factors for postpartum sexual dysfunction. Sex Med. 2020;8(1):8–13.
9. Asefa A, Nigussie T, Henok A, Mamo Y. Prevalence of sexual dysfunction and related factors among Diabetes Mellitus patients in Southwest Ethiopia. BMC Endocr Disorders. 2019;19(1):1–8.
10. Mateu Arrom L, Girabent-Farrés M, González M, Palou J, Errando-Smet C, Ramírez-García I. Development and validation of a short version of the female sexual function index in the Spanish population. BMC Womens Health. 2021;21(1):1–8.
11. Ejigu AK, Zewlde KH, Muluneh NY, Seraj ZR, GebreLibanos MW, Bezabih YH. Sexual dysfunction and associated factors among patients with Epilepsy at Amanuel Mental Specialty Hospital, Addis Ababa–Ethiopia. BMC Neurol. 2019;19(1):1–13.
12. Shitu S, Abebe H, Adane D, Wassie A, Mose A, Yeshaneh A. Knowledge of neonatal danger signs and associated factors among husbands of mothers who gave birth in the last 6 months in Gurage Zone, Southern Ethiopia, 2020: a community-based cross-sectional study. BMJ Open. 2021;11(8): e045930.
13. Maroufizadeh S, Riazi H, Lotfollahi H, Omani-Samani R, Amini P. The 6-item female sexual function index (FSFI-6): factor structure, reliability, and demographic correlates among infertile women in Iran. Middle East Fertility Society Journal. 2020;24(1):1–6.
14. Faubion SS, Fairbanks F, Kuhle CL, Sood R, Kling JM, Vencill JA, et al. Association between body mass index and female sexual dysfunction: a cross-sectional study from the data registry on experiences of aging, menopause, and sexuality. J Sex Med. 2020;17(10):1971–80.
15. Holanda JBL, Richter S, Campos RB, Trindade RFC, Monteiro JCS, Gomes-Sponholz FA. Relationship of thetype of breastfeeding in the sexual function of women. Rev Latino-Am Enfermagem. 2021;29:e3438. https://doi.org/10.1590/1518-8345.3160.3438.
16. Szöllősi K, Szabó L. The association between infant feeding methods and female sexual dysfunctions. Breastfeed Med. 2021;16(1):93–9.
17. Dağli E, Kul Uçtu A, Özerdoğan N. Sexual dysfunction in the postpartum period: Its relationship with postpartum depression and certain other factors. Perspect Psychiatr Care. 2021;57:604-9. https://doi.org/10.1111/ppc.12583.
18. García-Mejido JA, Idoia-Valero I, Aguilar-Gálvez IM, Borrero González C, Fernández-Palacín A, Sainz JA. Association between sexual dysfunction and avulsion of the levator ani muscle after instrumental vaginal delivery. Acta Obstet Gynecol Scand. 2020;99(9):1246–52.
19. Eid M, Sayed A, Abdel-Rehim R, Mostafa T. Impact of the mode of delivery on female sexual function after Childbirth. Int J Impot Res. 2015;27(3):118-20.
20. Hidalgo-Lopezosa P, Pérez-Marín S, Jiménez-Ruz A, López-Carrasco JdlC, Cubero-Luna AM, García-Fernández R, et al. Factors associated with postpartum sexual dysfunction in Spanish women: a cross-sectional study. J Personalized Med. 2022;12(6): 926.
21. Alidost F, Pakzad R, Dolatian M, Abdi F. Sexual dysfunction among women of reproductive age: a systematic review and meta-analysis. Int J Reproductive Biomed. 2021;19(5):421.
22. Logan S, Thu WPP, Ho K, Cauley JA, Kramer MS, Yong E-L. Sexual inactivity and sexual dysfunction in midlife Singaporean women: a prospective cross-sectional study of prevalence and risk factors. Maturitas. 2021;152:1-9.

Qeydlər / Заметки / Notes

Qeydlər / Заметки / Notes

Qeydlər / Заметки / Notes

Qeydlər / Заметки / Notes